# Azərbaycan Respublikası Gömrük Komitəsinin təşkili və fəaliyyəti məsələləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması ilə əlaqədar olaraq və onun fəaliyyəti üçün lazımi təşkilati, maddi və sosial şərait yaratmaq məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası gömrük orqanlarının rəhbər işçiləri və mütəxəssisləri üçün aşağıdakı fərdi rütbələr müəyyən. edilsin:

Baş dövlət gömrük xidməti müşaviri

I dərəcə dövlət gömrük xidməti müşaviri

II dərəcə dövlət .gömrük xidməti müşaviri

III dərəcə dövlət gömrük xidməti müşaviri

I dərəcə gömrük xidməti müşaviri

II dərəcə gömrük xidməti müşaviri

III dərəcə gömrük xidməti müşaviri

I dərəcə gömrük xidməti inspektoru

II dərəcə gömrük xidməti ^inspektoru

III dərəcə gömrük xidməti inspektoru

Müəyyən edilsin ki, baş dövlət gömrük xidməti müşavirinin, və I, II, III dərəcə dövlət gömrük xidməti müşavirlərinin fərdi. rütbəsini Azərbaycan Respublikasının Prezidenti; I, II, III dərəcə gömrük xidməti müşavirlərinin, I, II, III dərəcə gömrük xidməti inspektorlarının rütbəsini Gömrük Komitəsinin sədri verir.

2. Gömrük xidməti əməkdaşlarına fərdi rütbələrinə görə maaş. təyin edilir. Respublika gömrük orqanlarının əməkdaşlarının fərdi rütbələrinə görə maaşlarının məbləğləri I nömrəli əlavəyə uyğun olaraq müəyYən edilsin.

3. Azərbaycan Respublikası gömrük orqanlarının əməkdaşlarına vəzifə maaşlarından başqa 2 nömrəli əlavəyə uyğun olaraq uzun illər xidmət etməyə görə üstəlik haqq ödənilir.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikası gömrük orqanlarının bütün əməkdaşları gömrük xəracları, rüsumları, vergiləri, başqa ödənclər tutulmasından daxil olan vəsait hesabına dövlət tərəfindən mütləq şəxsən sığorta edilməlidirlər.

Azərbaycan Respublikası gömrük xidmətinin əməkdaşı xidmət fəaliyyətini həyata keçirərkən həlak olduqda onun ailəsinə və ya öhdəsində olanlara gömrük rüsumlarından, vergilərdən, başqa ödənclərdən yaranan vəsait hesabına həlak olanın beş illik maaşı qədər birdəfəlik müavinət ödənilir, sonradan həmin məbləğ müqəssir şəxslərdən tutulur. Gömrük xidmətinin əməkdaşına gələcəkdə peşə fəaliyyəti ilə məşğul olmaq imkanından məhrum edən ağır bədən xəsarəti yetirildikdə ona gömrük rüsumlarından, vergilərdən, başqa ödənclərdən yaranan vəsait hesabına məbləği sonradan müqəssir şəxslərdən tutulmaq şərti ilə iki illik maaşı qədər müavinət, habelə on il ərzində onun vəzifə maaşının məbləği ilə pensiya arasındakı fərq ödənilir.

Gömrük xidmətinin əməkdaşına daha yüngül bədən xəsarəti yetirildikdə ona gömrük rüsumlarından, vergilərdən, başqa ödənclərdən yaranan vəsait hesabına məbləği sonradan müqəssir şəxslərdən tutulmaq şərti ilə beş aylıq əmək haqqı qədər bir dəfəlik müavinət ödənilir.

Xidmət fəaliyyəti ilə əlaqədar olaraq gömrük xidmətinin əməkdaşının əmlakına vurulan zərərin əvəzi gömrük rüsumlarından, vergilərdən, başqa ödənclərdən yaranan vəsait hesabına məbləği sonradan müqəssir şəxslərdən tutulmaq şərti ilə tam həcmdə ödənilir.

~~5. Azərbaycan Respublikasının Gömrük Komitəsi haqqında Əsasnamə təsdiq edilsin.~~

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən***

***Azərbaycan Respublikası Ali Sovetinin sədri***

***Y. MƏMMƏDOV.***

***Bakı şəhəri, 18 aprel 1992-ci il.***

***№ 688.***

***«Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (15 may 1992-ci il, № 9, maddə 235) («VneshExpertService» LLC).***

***27 oktyabr 1998-ci il tarixli, 7 nömrəli Fərmana əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*1992-ci il 18 aprel tarixli 688*
*nömrəli Fərmanına*
*Əlavə № 1*

## Azərbaycan Respublikası gömrük orqanlarının, Azərbaycan Respublikası Gömrük Komitəsi sistemi müəssisə və təşkilatlarının işçilərinin rütbələr üzrə maaşları

| Fərdi rütbələr | Fərdi rütbə üzrə maaş (ayda manat) |
|---|---|
| Baş dövlət gömrük xidməti müşaviri | 600 |
| I dərəcə dövlət gömrük xidməti müşaviri | 500 |
| II dərəcə dövlət gömrük xidməti müşaviri | 440 |
| III dərəcə dövlət gömrük xidməti müşaviri | 400 |
| I dərəcə gömrük xidməti müşaviri | 360 |
| II dərəcə gömrük xidməti müşaviri | 320 |
| III dərəcə gömrük xidməti müşaviri | 300 |
| I dərəcə gömrük xidməti inspektoru | 260 |
| II dərəcə gömrük xidməti inspektoru | 240 |
| III dərəcə gömrük xidməti inspektoru | 220 |

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*1992-ci il 18 aprel tarixli 688*
*nömrəli Fərmanına*
*Əlavə № 2*

## Azərbaycan Respublikası gömrük orqanlarının fərdi rütbəsi olan işçilərinə vəzifə maaşlarından başqa uzun illər xidmət etməyə görə ödənilən faizhesabı üstəlik haqqın məbləğləri

| Gömrük orqanlarında aşağıdakı qədər iş stajı olduqda başqa | Aylıq vəzifə maaşından faizhesabı üstəlik haqqın məbləği |
|---|---|
| 1 ildən 3 ilədək | 5% |
| 3 ildən 5 ilədək | 10% |
| 5 ildən 10 ilədək | 15% |
| 10 ildən 15 ilədək | 20% |
| 15 ildən 20 ilədək | 25% |
| 20 ildən 25 ilədək | 30% |
| 25 ildən 30 ilədək | 35% |
| 30 ildən yuxarı | 40% |

---

*~~Azərbaycan Respublikası~~*
*~~Prezidentinin~~*
*~~1992-ci il 18 aprel tarixli 688~~*
*~~nömrəli Fərmanı ilə~~*
*~~təsdiq edilmişdir~~*

# ~~Azərbaycan Respublikasının Gömrük Komitəsi haqqında Əsasnamə~~

~~1. Azərbaycan Respublikasının Gömrük Komitəsi Azərbaycan. Respublikasının mərkəzi gömrük orqanıdır. Gömrük Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərir.~~

~~Azərbaycan Respublikasının Gömrük Komitəsi respublikanın gömrük siyasətinin həyata keçirilməsi, vahid respublika gömrük xidmətinin səmərəli fəaliyyəti və gömrük işi haqqında qanunvericiliyə riayət olunmasının təmin edilməsi üçün məsuliyyət daşıyır.~~

~~2. Azərbaycan Respublikasının Gömrük Komitəsi, Azərbaycan Respublikasının gömrükxanaları, Komitənin tabeliyində olan müəssisələr və təşkilatlar Azərbaycan Respublikası Gömrük Komitəsinin vahid sistemini təşkil edirlər.~~

~~3. Azərbaycan Respublikasının Gömrük Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Ali Sovetinin dikər aktlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını və sərəncamlarını, bu Əsasnaməni və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini rəhbər tutur.~~

~~4. Azərbaycan Respublikası Gömrük Komitəsinin başlıca vəzifələri aşağıdakılardır:~~

- ~~gömrük işi haqqında qanunvericiliyə riayət olunmasının təmin edilməsi;~~
- ~~Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının iqtisadi mənafelərinin qorunması;~~
- ~~respublika iqtisadiyyatının inkişafının və beynəlxalq əmək bölgüsündə Azərbaycan Respublikasının iştirakı üçün əlverişli şərait təmin edilməsinin üstünlüyünü əsas tutaraq ticarət-iqtisadi münasibətləri gömrük vasitəsilə tənzimləməyin metod və vasitələrinin təkmilləşdirilməsi;~~
- ~~gömrük haqlarının, rüsumlarının, vergilərinin, başqa məcburi ödənişlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada və miqdarda respublika büdcəsinə keçirilməsi;~~
- ~~qaçaqmalçılığa, gömrük qaydalarının və gömrük vergisi haqqında qanunvericiliyin pozulmasına qarşı mübarizə;~~
- ~~Azərbaycan Respublikasının gömrük statistikasının aparılması;~~
- ~~Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafına kömək göstərilməsi;~~
- ~~dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların və vətəndaşların gömrük işi məsələləri barədə informasiya ilə təmin edilməsi;~~
- ~~dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların xarici iqtisadi fəaliyyəti sahəsində mütəxəssislərin hazırlanmasında, yenidən hazırlanmasında və onların ixtisasının artırılmasında iştirak;~~
- ~~gömrük işi məsələləri ilə bağlı beynəlxalq əməkdaşlıqda Azərbaycan Respublikasının iştirakının təmin edilməsi, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrinin, mədəni və tarixi irs predmetlərinin, intellektual mülkiyyət obyektlərinin qanunsuz dövriyyəsinin qarşısının alınması;~~

~~5. Azərbaycan Respublikasının Gömrük Komitəsi ona həvalə edilmiş vəzifələrə uyğun olaraq:~~

a) Azərbaycan Respublikasının vahid gömrük siyasətinin iqtisadi, təşkilati, hüquqi mexanizmini hazırlayır, bunların praktik tətbiqini təmin edir;

b) gömrük işi haqqında qanunvericilik aktlarının layihələrini hazırlayır;

v) gömrük işi məsələləri barədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələr bağlaması və bu məsələlərə dair beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının qoşulması haqqında təkliflər təqdim edir, Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqavilələr bağlaması sahəsində danışıqlar aparır, Azərbaycan Respublikasının başqa beynəlxalq müqavilələri layihələrinin gömrük işinə aid hissəsinin hazırlanmasında iştirak edir;

q) beynəlxalq təşkilatların və orqanların fəaliyyətində müəyyən olunmuş qaydada iştirak edir, xarici ölkələrin gömrük orqanları ilə əlaqə saxlayır;

ğ) ixrac-idxal əməliyyatlarının həyata keçirilməsində gömrük işi və vergi haqqında qanunvericiliyə riayət olunması üzərində nəzarətin təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər hazırlayır və keçirir;

d) gömrük tənzimlənməsi vasitələrinin, o cümlədən gömrük-tarif mexanizminin tətbiq olunmasını, malların və dikər predmetlərin gətirilməsinin və aparılmasının lisenziya-icazə qaydasına riayət olunmasını təmin edir;

e)gömrük gəlirlərinin və Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyəti nəticəsində daxil olan dikər məbləğlərin respublika büdcəsinə keçirilməsini təmin edir;

ə) Azərbaycan Respublikasının gömrük statistikasını təşkil edir və aparır, onun tamlığını və aşkar xarakterini, habelə bu statistika məlumatlarının Azərbaycan Respublikasının Ali Sovetinə, Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasını təmin edir;

j) Azərbaycan Respublikasının gömrük sərhədi vasitəsi ilə sərnişin və mal dövriyyəsinin sürətləndirilməsinə, Azərbaycan Respublikasının və onun ayrı-ayrı regionlarının xarici iqtisadi əlaqələrinin inkişafına, o cümlədən gömrükxana şəbəkəsinin və dikər gömrük infrastrukturu obyektlərinin genişləndirilməsinə kömək edən şərait yaradır;

z) müstəqil və ya hüquq mühafizə orqanları ilə əlbir surətdə qaçaqmalçılığa, gömrük qaydalarının və vergi haqqında qanunvericiliyin pozulmasına yol verməmək və onların qarşısını almaq sahəsində tədbirlər, habelə beynəlxalq terrorizmə və beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qeyri-qanuni müdaxilə olunmasına qarşı mübarizəyə kömək göstərmək sahəsində tədbirlər hazırlayır və keçirir, Azərbaycan Respublikasının gömrük orqanlarının qaçaqmalçılıq işlərini istintaq edən vəzifəli şəxslərinin siyahısını müəyyən edir;

i) gətirilən malların istehlakçılarının hüquqlarını və intellektual mülkiyyət hüquqlarının müdafiə etməyə yönəldilmiş tədbirlərin həyata keçirilməsinə kömək göstərilməsini təmin edir;

~~ı) qaçaqmalçılıq, gömrük qaydalarının və vergi haqqında qanunvericiliyin pozulması üzrə işlərin icraatında Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qanuniliyinə nəzarət edir, belə pozuntu işlərinə dair Azərbaycan Respublikası gömrük orqanlarının qərarlarından şikayətlərə və etirazlara baxır; Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyəti məsələlərinə dair müəssisələrin, idarələrin, təşkilatların və vətəndaşların müraciətlərinə vaxtında və düzgün baxılmasını təmin edir; müəssisələrin, idarələrin, təşkilatların və vətəndaşların hüquqlarının pozulması səbəblərinin aradan qaldırılması üçün tədbirlər görür;~~

~~y) Azərbaycan Respublikasının gömrükxanalarını, tabelikdə olan müəssisələri və təşkilatları yaradır, yenidən təşkil edir və ləğv edir, bu orqanların, müəssisələrin və təşkilatların əmlakının idarə edilməsi sahəsində mülkiyyətçi səlahiyyətini həyata keçirir;~~

~~k) Azərbaycan Respublikasında gömrük işinin inkişafı sahəsində tədbirləri bu məqsəd üçün daxil olan gömrük haqları hesabına maliyyələşdirir;~~

~~k) öz sistemində elm, və texnika sahəsində vahid siyasəti formalaşdırır və həyata keçirir.~~

~~Azərbaycan Respublikasının Gömrük Komitəsi göstərilən vəzifələrlə yanaşı tabelikdə olan orqanların, müəssisələrin və təşkilatların fəaliyyətinə, o cümlədən planlaşdırma, maddi-texniki təchizat, əsaslı tikinti, maliyyə və kredit, kadr, əmək, əmək haqqı, dikər sosial məsələlər, habelə xarici ölkələrlə əlaqələr sahəsində fəaliyyətə rəhbərlik edilməsi ilə əlaqədar funksiyaları həyata keçirir.~~

~~6. Azərbaycan Respublikasının Gömrük Komitəsi ona həvalə edilmiş funksiyaları Azərbaycan Respublikasının nazirlikləri və başqa dövlət idarəetmə orqanları, Naxçıvan Muxtar Respublikasının hökuməti, yerli dövlət hakimiyyət və idarəetmə orqanları, habelə ictimai birliklər, başqa idarələr, müəssisələr, təşkilatlar ilə əlbir yerinə yetirir.~~

~~7. Gömrük Komitəsi ona həvalə edilmiş vəzifələri yerinə yetirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquqlara malikdir.~~

~~8. Azərbaycan Respublikasının Gömrük Komitəsinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan Sədr başçılıq edir.~~

~~Azərbaycan Respublikası Gömrük Komitəsinin Sədri Komitəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.~~

~~Azərbaycan Respublikasının Gömrük Komitəsi Sədrinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.~~

~~Azərbaycan Respublikasının Gömrük Komitəsi Sədrinin müavinləri arasında vəzifə bölgüsünü Sədr aparır.~~

~~9. Azərbaycan Respublikasının Gömrük Komitəsi Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Ali Sovetinin dikər aktları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və sərəncamları əsasında və onları icra edərək öz səlahiyyəti hüdudlarında aktlar verir.~~

10. Azərbaycan Respublikasının Gömrük Komitəsi hüquqi şəxsdir, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı olan möhürə malikdir.